

Allahverdi Eminov

# Buğa

(hekayə)

Uşaqlığımdan bir hadisəni unutmamışam, haradansa yadıma düşdü.

Kəndin naxırı axşamüstü örüşdən qayıdırdı, tozanağa bürünən mal-qaranın gəlişi uşaqların, hətta bizdən 3-4 yaş böyüklərin də əyləncə yeri olurdu. Eyni zamanda özümüzün bir, yaxud iki baş heyvanımız naxırla gəlirdi. Camışı olanlar atılıb onun belinə minir, inəyi olanlar yanı ilə gedir, buğası olanlar şıltaqlığından ləzzət alırdı. Naxırda başqa kənddən alınan dəlisov buğa naxırçını boğaza yığmışdı. Onun yaşı iyirmiyə çatmamışdı, bir-iki il sinifdə qaldığı üçün məktəbi buraxmışdı, çobanlıq eləyirdi. Ətli-qanlı, musqullu və boylu-buxunlu gənc idi. Biz ona oxşamağa çalışırdıq sağlamlıqda, oxumaqda yox a!

Baxanda gördük dəlisov buğa naxırçı ilə yenə öcəşir, dinc dayanmır, gözü ilə zərif cinsli rəqib axtarır. Mal- heyvanın kəndə girən vaxtı belə hərəkət yaramaz, - ləngidər naxırı. Görünür, cavan çobanı da belə məqam hirsləndirmişdi. Əlində yulğundan qırılmış ağacı yellədir, buğanı sakitləşdirmək istəyirdi.

Dostum mənzərəyə baxıb mızıldandı:

- Bu öküz deyil, buğadır a! Buğa kimi də onunla döyüşə girmək lazımdır! - İntizarlı idi. Bu sözləri naxırçı eşitdi.

- Mənə tanıtdırırsan? - Uzaqdan qışqırdı. - İndi mən o buğanı öküz edəcəyəm! - Əliylə göstərdi.

Onun sözləri bizi daha da maraqlandırdı və buğaya tərəf irəlilədik. Yaxında idi, baxışları dağılmışdı.

- Əsil tamaşa başlanacaq. - Dilim dinc durmadı. Buğa gərilmiş boynunun, ayaqlarının gücünü toplayıb naxırçıya çevrildi. Kürəyini alışdıran ağacın zərbəsindən buğa quyruğunu qaldırdı və "rəqibinə" yaxınlaşdı. Hazır idi döyüşə. Biz uşaqlar da, yaşlılar da bu dəqiqəni gözləmirdik? Buğa güclü boynunu əyir, buynuzunu qabağa verir, onunla qabaqqənşər gələn naxırçıya ilişdirmək üçün irəli cumurdu. O, daha bir zərbə yemişdi.

Naxırçı sanki filmlərdə gördüyümüz motodor rolunda idi, heyrətimizdən sevinirdik, həyəcan keçirirdik. O, buğa ilə üzbəüz dayanmışdı, böyrünü ona sarı çevirmişdi. Oğlanın yumrulanmış beş barmağı ilə buğanın başına necə vurduğunu görürdük. Buğa irəli cummağa çalışanda yumruğunu yox, ağacın onun bel sütununa necə dəydiyini, buğanın böyürdüyünü müşahidə edirdik. Naxırçıya haradansa güc gəlmişdi, ona əlavə nəfəs verilmişdi. Buğa qabaq ayaqlarını yerə dirəmiş halda başını ağacdan qoruyur, buynuzlarını işə salmağa çalışırdı. Naxırçı buğanın qarşısında yanakı durmuşdu, ağacı ovcunda fırladıb buğanın boynu həndəvərində qaldırdı və endirdi. Qəribəsi o idi söyüş yağdırmırdı, yəqin ki, tamaşaçılar səbəbkar idi. Buğa dabanı üstündə ləngər vururdu, sol buynuzunun dibindən nazik qan zolağı işıldayırdı. Biz onu düşünürdük, buğa başını əyəcək, buynuzunu torpağa sürtəcək, azca nəfəsini tənzim edəcəkdir. Buğa ağır-ağır nəfəs alır, əlində çomağa - ağaca acı-acı baxır, fınxırırdı. Buğa fikirləşirdi əli toppuzlu ağacla üstümə gəlmisən, kişisənsə yalın əllə gələydin, o vaxt buynuzlarımı işə salmazdım...

Buğa naxırçını aydınca görürdü, nəfəsinin necə çətinliklə aldığını duyurdu. Qaşları düyünləşmişdi. - Buğa ölə bilər, çox üstünə düşdüm. - Peşmanlıqla: - Mən silahlı, o isə... Buğa bu etirafı anlaya bilməzdi. Həqiqətən, buğaya yazığım gəldi. Buğa sakitləşməmişdi, dizləri bükülmüşdü, buynuzları bəlkə də laxlamışdı, ağrı verirdi. Nə olsun heyvandır, onun da canı var. Buğa ayaqlarını torpağa dirəyib ayağa qalxdı, qan çanağına bulaşmış gözlərini naxırçıya yox, tamaşaçılara zilləmişdi. O, şəksiz kömək ummuşdu, bizim onu müdafiə edəcəyimizi gözləmişdi.

Naxırçı çomağını çənəsinə dirəmiş halda buğaya baxır, aralarında baş vermiş "ağır" döyüşün ölümlə nəticələnmədiyinə sevinirdi. Buğa isə, güman ki, sevinirdi tamaşaçıların gözü qabağında tab gətirmişdir, canını tapşırmamışdır. Amma özünə tam haqq qazandırmadı, təzə gələndən bu cavan naxırçını çox-çox incitmişdi, yormuşdu, əldən salmışdı. Axı, nə üçün gəldiyi yolla düz getmir, gözü ora-bura dağılır, buynuzu qaşınır...

Naxırçı buğaya tərəf addımladı, alnının tərini əzilmiş dəsmalı ilə sildi, boynunu ovuşdurdu. Buğanın da boynunu ovxaladı, qan örtmüş iri gözlərini sığalladı:

- Bu da bir oyun idi, - pıçıldadı, - keçdi. - Bir az yüngülləşdi.

Mənim ürəyimdə isə səsləndi: - Görəsən, buğa naxırçı ilə barışacaqdımı?

Ədalət.- 2020.- 12 fevral. S. 4.